TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

---

## ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI

**SƏKKİZİNCİ İCLAS**

**6 mart 2023-cü il**
**Bakı**

## TÖVSİYƏ QƏRARI

## TÜRKPA ÜZV DÖVLƏTLƏRİNDƏ BİOMÜXTƏLİFLİYİN QORUNMASI

Parlament Assambleyası**:**

Biomüxtəlifliyin TÜRKPA üzv dövlətlərinin uğurlu sosial-iqtisadi inkişafı üçün əsas təhlükə yarada biləcək ən ciddi ekoloji və sosial-iqtisadi problemlərdən biri olduğunu ***xatırladaraq***;

Torpaqların və su obyektlərinin daha yüksək səviyyədə turşulaşması, artan biomüxtəliflik itkisi, daha çox torpaq eroziyası və artan tullantı və çirklənmə miqdarı daxil olmaqla ekoloji nəticələrlə bağlı narahatlıqları ***nəzərə alaraq;***

TÜRKPA üzv dövlətlərinin qoşulduğu və qəbul etdiyi biomüxtəliflik̇lə bağlı beynəlxalq konvensiyaları və qanunları ***qeyd edərək***;

Biomüxtəlifliyi insanın həyat keyfiyyətinin ən mühüm elementlərindən biri və buna görə də TÜRKPA regionunda hər bir dövlətin inkişafında mühüm amil olduğunu ***hesab edərək;***

TÜRKPA-ya üzv dövlətlərdə təbii ehtiyatlardan ekoloji istifadəyə dair seminarlar, forumlar və digər növ tədbirlərə ***dəstək verərək***;

2015-ci ilin sentyabrında BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Davamlı İnkişaf Məqsədlərini (SDG), eləcə də biomüxtəlifliyin qorunması və davamlı istifadəsi üçün qlobal tərəfdaşlığa və regional əməkdaşlığa xüsusi əhəmiyyət verən beynəlxalq çərçivə olan Bioloji Müxtəliflik haqqında Konvensiyanı ***dəstəkləyərək***;

Parlamentlərin hökumətləri yaranan ekoloji çağırışlara tez və effektiv cavab verməyə çağırmaqla təbii ehtiyatların davamlı idarə olunmasının təmin edilməsində əsas rol oynaya biləcəyini ***nəzərə alaraq***;

Üzv dövlətlərin parlamentləri arasında ikitərəfli və ya çoxtərəfli sazişlər əsasında əməkdaşlığı, habelə onların beynəlxalq və regional ixtisaslaşmış təşkilatlarla əməkdaşlığını ***qeyd edərək***;

Assambleya TÜRKPA üzv dövlətlərinin parlamentlərinə tövsiyə edir:

*a)* üzv ölkələr arasında qanunvericiliyin sonradan uyğunlaşdırılması və yaxınlaşdırılması ilə biomüxtəlifliyin idarə edilməsi üzrə hüquqi bazanın *təkmilləşdirilməsi;*

b) əhalinin sosial fəallığını artırılması, ölkənin inkişafı üçün mühüm və strateji vəzifələr olan təbii sərvət potensialının qorunması üçün məsuliyyət şüurunun *formalaşdırılması*;

c) məsələ ilə bağlı üzv ölkələr arasında səmərəli regional və ikitərəfli əməkdaşlığın genişləndirilməsinə yönəlmiş *səylərin göstərilməsi;*

d) TÜRKPA üzv ölkələri arasında müvafiq sahələrdə əməkdaşlığın digər prioritetlərinin müəyyən edilməsi;

e) informasiya və təcrübə mübadiləsi, təlim və birgə tədqiqat proqramları kimi sahələrdə regional və ikitərəfli əməkdaşlığın *gücləndirilməsi*;

f) üzv ölkələrdə biomüxtəlifliyin qorunması ilə bağlı qanunvericiliyin öyrənilməsi, müvafiq sahədə qanunları analiz etmək üçün müvafiq sənədlərin toplanması və *təhlil edilməsi*.